# Böyük şairə bəşəri ehtiram

*Mən mülki-cahan, cahan mənəm, mən!*
*Mən həqqə məkan, məkan mənəm, mən!*
*...İnsanü bəşərsən, ey Nəsimi,*
*Həqq der ki, haman, haman mənəm, mən!*

Sözünün qüdrəti ilə əsrləri aşaraq zəmanəmizə qədər gəlib çıxan Nəsimi humanizm carçısı, bəşəri ideyaların tərənnümçüsü kimi dünyada özünə əbədi ad qazanıb. Müxtəlif ölkələrin tanınmış elm, ədəbiyyat, mədəniyyət xadimlərinin Azərbaycanın böyük şairinə, onun ədəbi-fəlsəfi irsinə bəslədiyi dərin ehtiram bunun göstəricisidir.

Nəsimi poeziyası 600 ilin qaranlığını işıq şüası kimi yırtaraq bizə gəlib çatmışdır. Ən qiymətli cəhət də budur ki, o, indi də əvvəlki kimi parlayır! Mən Nəsimini dünya lirikasının Koperniki adlandırmaq istəyirəm. Nəsimidən yüz il kiçik olan Kopernik təsdiq edirdi ki, kainatın mərkəzi Yer deyil, Günəşdir. Böyük astronomun Günəş haqqında dediklərini Nəsimi ondan yüz il əvvəl insan haqqında demişdir. Günəş kimi insan da kainatın mərkəzində durur. Nəsiminin poetik sisteminin əsas müddəası məhz budur.

**Lev Ozerov**
**rus şərqşünası**

Cordano Bruno Qərb dünyasının Nəsimisi sayılmaqla fəxr edə bilər... Dahi Nəsimi şahlar, sultanlar, xaqanlar dövründə - cəhalət zülmətində ictimai ədalətsizlik hökm sürən bir zamanda Prometey kimi canını, qəlbini məşələ döndərib qaranlıqlara ildırım təki şəfəq saçmışdır. Buna görə də onun müdrik və hikmətli sözləri dünya durduqca zülmətləri parçalayıb nəsillərdən-nəsillərə keçə-keçə örnək olacaq. Nəsiminin dərin mənalı diqqətəşayan sözlərini oxuduqda heyrətlənməmək, qürur, fərəh duymamaq olmur.

**Cozef Nort**
**Amerika yazıçısı**

XIV əsrdə şair olmaq qorxusu, XII əsr Nizami dövrünə görə daha təhlükəli idi. Bu dövrdə Nəsimi adlı bir şair yetişmişdir... Nəsimini diri-diri dabanından soydular və sonra Hələb şəhərinin qapılarından asdılar. Altı əsr özündən sonra yetişmiş Musa Cəlil kimi, Nəsimi də son nəfəsinə qədər yazıb-yaratmışdır.

**Lui Araqon**
**fransız yazıçı və şairi**

İmadəddin Nəsiminin yaşayıb-yaratdığı dövrdən bizi ayıran altı əsr bu nəhəngin poeziyası üzərindən qələm çəkə bilməmişdir. Yaradıcılığı dünya ədəbiyyatı xəzinəsinə daxil olmuş böyük Azərbaycan şairinin adı bu gün də göy qübbəsində ən böyük ulduzlardan biri kimi parlayır və öz şəfəqləri ilə üstümüzə işıq salır.

**Bobocan Qafurov**
**akademik (Tacikistan)**

Nəsiminin doğma ədəbiyyat qarşısında başlıca tarixi xidməti yazılı ədəbiyyata Azərbaycan dilini gətirməsidir. Şərq poeziyasının ərəb və fars dillərində yazdığı bir dövrdə onun doğma dildə yazılmış gözəl "Divan"ı parlaq şəkildə sübut etdi ki, Azərbaycan dilində də gözəl nəzm əsərləri yaratmaq mümkündür.

**Sergey Vasilyev**
**rus şairi**

Mədəniyyət: xüsusi buraxılış.- 2019.- iyul. S. 47.